# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində "Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzi" publik hüquqi şəxsin yaradılması haqqında**

"İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" Azərbaycan Respublikasının 2020-ci il 20 oktyabr tarixli 189-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 8 dekabr tarixli 1208 nömrəli Fərmanının 4-cü və 5-ci hissələrinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində "Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzi" publik hüquqi şəxs yaradılsın.

2. "Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzinin Nizamnaməsi" təsdiq edilsin (1 nömrəli əlavə).

3. "Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzinin Strukturu" təsdiq edilsin (2 nömrəli əlavə).

4. Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzinin (bundan sonra – Koordinasiya Mərkəzi) işçilərinin say həddi 30 ştat vahidi müəyyən edilsin.

5. Müəyyən edilsin ki:

5.1. Koordinasiya Mərkəzinin nizamnamə fondu 300 000 (üç yüz min) manat təşkil edir və Koordinasiya Mərkəzinin əsas vəsaiti hesabına formalaşır;

5.2. Koordinasiya Mərkəzi "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" Azərbaycan Respublikası

Qanununun 9.3-cü maddəsinə əsasən orqan donorluğu və transplantasiya fəaliyyətini həyata keçirə bilməz.

6. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi Koordinasiya Mərkəzinin dövlət qeydiyyatına alınması üçün bu Qərarın qüvvəyə mindiyi tarixdən 3 (üç) gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə müraciət etsin.

7. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 6 avqust 2022-ci il

№ 288

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 6 avqust tarixli 288 nömrəli Qərarı ilə **təsdiq edilmişdir.**

**1 nömrəli əlavə**

## Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzinin

## N İ Z A M N A M Ə S İ

### 1. Ümumi müddəalar

1.1. Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzi (bundan sonra – Koordinasiya Mərkəzi) orqan donorluğu və transplantasiyanın təşkili və əlaqələndirilməsini həyata keçirən publik hüquqi şəxsdir.

1.2. Koordinasiya Mərkəzi Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin (bundan sonra – Nazirlik) tabeliyində fəaliyyət göstərir.

1.3. Koordinasiya Mərkəzi öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, "Publik hüquqi şəxslər haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında", "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin digər qərarlarını, həmçinin sərəncamlarını, bu Nizamnaməni, Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarını, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin qərar, əmr və sərəncamlarını rəhbər tutur.

1.4. Koordinasiya Mərkəzi öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət orqanları (qurumları) ilə, yerli özünüidarəetmə orqanları ilə, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.5. Koordinasiya Mərkəzi ümumdövlət və ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olur. Koordinasiya Mərkəzi bu Nizamnamədə qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər.

1.6. Koordinasiya Mərkəzinin müstəqil balansı, əmlakı, xəzinə və bank hesabları, Nazirliyin və öz adı həkk olunmuş möhürü, müvafiq ştampları və blankları vardır.

1.7. Qanuna uyğun olaraq, Koordinasiya Mərkəzinin əqdlər bağlamaq, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək hüququ, həmçinin vəzifələri vardır. Koordinasiya Mərkəzi məhkəmədə iddiaçı və ya cavabdeh qismində çıxış edə bilər.

1.8. Koordinasiya Mərkəzi Bakı şəhərində yerləşir.

## 2. Koordinasiya Mərkəzinin fəaliyyətinin istiqamətləri

2.1.Koordinasiya Mərkəzinin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. orqan donorluğu və transplantasiya sahəsində fəaliyyəti təşkil etmək və əlaqələndirmək;

2.1.2. orqan donorluğu və transplantasiyasını həyata keçirən tibb müəssisələrinin işini koordinasiya etmək;

2.1.3. orqan donorluğu və transplantasiya sahəsində vahid uçotu aparmaq;

2.1.4. orqan donorluğu və transplantasiya sahəsində informasiya təminatını təşkil etmək;

2.1.5. bu Nizamnamədə nəzərdə tutulmuş digər istiqamətlərdə fəaliyyət göstərmək.

## 3. Koordinasiya Mərkəzinin vəzifələri və hüquqları

3.1. Bu Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq Koordinasiya Mərkəzinin vəzifələri aşağıdakılardır:

3.1.1. orqan donorluğu və transplantasiya sahəsində normativ hüquqi aktların, inkişaf konsepsiyalarının, məqsədli proqramların hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

3.1.2. orqan donorluğu və transplantasiya ilə bağlı informasiya təminatını həyata keçirmək;

3.1.3. orqan donorluğu və transplantasiya ilə bağlı tibb müəssisələrindən məlumatların toplanılmasını təmin etmək;

3.1.4. “Donorlar, resipiyentlər və donor orqanların vahid dövlət informasiya bazası”nı aparmaq və müntəzəm olaraq yenilənməsini təmin etmək, həmin bazaya daxil edilmiş məlumatların düzgünlüyünü

və tamlığını yoxlamaq, aşkar edilmiş səhvlər barədə tibb müəssisələrinə məlumat vermək;

3.1.5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 10 iyul tarixli 200 nömrəli Qərarı ilə təsdiq edilmiş "Resipiyentin gözləmə vərəqəsinin tərtib olunma Qaydası"nın tələbləri nəzərə alınmaqla donor orqanların resipiyentlərə verilməsi ardıcıllığını təmin etmək;

3.1.6. orqan donorluğu və transplantasiya sahəsində işi təşkil etmək və bu sahədə fəaliyyəti koordinasiya etmək;

3.1.7."İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" Azərbaycan Respublikası Qanununun 22-ci maddəsinə uyğun olaraq, şəxsin sağlığında ölümdən sonra transplantasiya məqsədilə orqanlarının götürülməsinə razılığı və ya orqanlarının götürülməsindən imtina edilməsi barədə iradə ifadəsinin olması haqqında informasiyanın məxfiliyini təmin etmək, onun bununla bağlı ərizəsinin qanuna uyğun tərtib edildiyini yoxlamaq və nəticəsi barədə ərizəçiyə bildiriş göndərmək;

3.1.8. transplantasiya üzrə koordinator tərəfindən canlı donordan transplantasiya məqsədilə donor orqanın götürülməsinin zəruriliyinə və mümkünlüyünə dair həkim komissiyasının qərarının, şəxsin donor olub-ola bilməməsi barədə etika komissiyasının müvafiq qərarının, resipiyentin gözləmə vərəqəsinin, meyit donordan götürülmüş orqanla bağlı aktın, transplantasiya məqsədilə donor orqanların idxalını və ya ixracını həyata keçirən tibb müəssisələri barədə məlumatların vahid informasiya bazasına daxil edilməsini təşkil etmək;

3.1.9. donorların, resipiyentlərin, donor orqanların transplantasiya fəaliyyətinə cəlb olunmuş həkim-transplantoloqların və transplantasiya üzrə koordinatorların uçotunu aparmaq;

3.1.10. "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" Azərbaycan Respublikası Qanununun 29.2-ci maddəsinə uyğun olaraq şəxsin donor olub-ola bilməməsi barədə qərarın qəbul edilməsi üçün etika komissiyasına təqdimat vermək;

3.1.11. transplantasiya üzrə koordinatorların fəaliyyətinə nəzarəti və onlar arasında səmərəli qarşılıqlı əlaqəni təmin etmək;

3.1.12.donor orqanların götürülməsinin və transplantasiyasının həyata keçirilməsi ilə bağlı əməliyyat zamanı ağırlaşmaların olması, tibb müəssisəsini tərk etdikdən sonra dispanser müşahidəsinin

nəticələri (əsas və yanaşı gedən xəstəliklər, onların ağırlaşmaları, əməliyyatla əlaqədar əlilliyin yaranması) barədə tibb müəssisələrindən daxil olan məlumatları Nazirliyə təqdim etmək;

3.1.13. donor orqanların götürülməsini və transplantasiyasını həyata keçirən tibb müəssisələrinin transplantasiya işinin təşkili və həyata keçirilməsi üzrə məsul şəxsləri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərmək;

3.1.14. orqan donorluğu və transplantasiya sahəsində dövlət orqanlarının (qurumlarının), yerli özünüidarəetmə orqanlarının, hüquqi və fiziki şəxslərin fəaliyyətini əlaqələndirmək;

3.1.15. orqan donorluğu və transplantasiya sahəsində elektron xidmətləri "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq təşkil etmək;

3.1.16. Koordinasiya Mərkəzinin fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.17. kargüzarlığı və vətəndaşların qəbulunu müvafiq normativ hüquqi aktların tələblərinə uyğun təşkil etmək, Koordinasiya Mərkəzinin əməkdaşlarının əlavə təhsilinin və peşəkarlığının yüksəldilməsi üçün tədbirlər görmək;

3.1.18. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.19. Koordinasiya Mərkəzinə ayrılan büdcə vəsaitindən, kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.20. dövlət və kommersiya sirrinin, habelə məxfilik rejiminin qorunması üçün tədbirlər görmək;

3.1.21. Koordinasiya Mərkəzinin informasiya təminatını təşkil etmək və onun təhlükəsizliyini təmin etmək;

3.1.22. strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirlər görmək;

3.1.23. qabaqcıl beynəlxalq təcrübəni nəzərə almaqla, orqan donorluğu və transplantasiya sahəsində elmi-texniki nailiyyətlərin tətbiqini təmin etmək;

3.1.24. orqan donorluğu və transplantasiya sahəsində peşəkar mütəxəssislərin hazırlanması və tədris proqramlarının tərtibi ilə bağlı təkliflər vermək və onların həyata keçirilməsində iştirak etmək;

3.1.25. bu Nizamnamədə nəzərdə tutulmuş digər vəzifələri həyata keçirmək.

3.2. Koordinasiya Mərkəzinin öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqları vardır:

3.2.1. orqan donorluğu və transplantasiya sahəsində normativ hüquqi aktın layihəsinin qəbul olunması, aktda dəyişikliklər edilməsi, aktın şərh edilməsi, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi haqqında aidiyyəti üzrə təkliflər vermək;

3.2.2. orqan donorluğu və transplantasiya sahəsində beynəlxalq müqavilələrə Azərbaycan Respublikasının tərəfdar çıxması barədə təkliflər vermək;

3.2.3. orqan donorluğu və transplantasiyasını həyata keçirən tibb müəssisələri, bu fəaliyyətə cəlb olunan tibb işçiləri, resipiyentlər, donorlar, donor orqan və toxumaları barədə məlumatları əldə etmək və saxlamaq;

3.2.4. orqan donorluğu və transplantasiyasını həyata keçirən tibb müəssisələrinə bu sahədə metodiki tövsiyələr vermək, metodiki vəsaitlərin hazırlanmasında iştirak etmək, zəruri tədbirlərin görülməsi üçün müvafiq məlumatları Nazirliyə təqdim etmək, fəaliyyət istiqamətlərinə aid elmi məqalələri və məlumat xarakterli materialları nəşr etmək;

3.2.5. beynəlxalq təcrübənin tətbiqi imkanlarının araşdırılması məqsədilə beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək;

3.2.6. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı araşdırmalar aparmaq, işçi qruplar və komissiyalar yaratmaq;

3.2.7. dövlət orqanlarına və qurumlarına, yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

3.2.8. fəaliyyət istiqamətləri üzrə rəy və təkliflər vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq;

3.2.9. müstəqil ekspertləri və mütəxəssisləri öz fəaliyyətinə cəlb etmək;

3.2.10. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı konfranslar, müşavirələr, seminarlar keçirmək və digər tədbirlər təşkil etmək;

3.2.11. orqan donorluğu və transplantasiya sahəsində təşviqat və maarifləndirmə işlərini həyata keçirmək;

3.2.12. əməkdaşlarının dövlət təltiflərinə və digər mükafatlara təqdim edilməsi ilə bağlı Nazirliyə təkliflər vermək, onların həvəsləndirilməsi üçün tədbirlər görmək;

3.2.13. sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq, təsərrüfat cəmiyyətləri yaratmaq və ya onlarda iştirak etmək;

3.2.14. xüsusi bülletenlər və digər nəşrlər buraxmaq;

3.2.15. bu Nizamnamədə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## 4. Koordinasiya Mərkəzinin idarə olunması

4.1. Koordinasiya Mərkəzi öz fəaliyyətində və idarəetmədə mütərəqqi korporativ idarəetmə standartlarını tətbiq edir.

4.2. Koordinasiya Mərkəzinin idarəetmə orqanı İdarə Heyətidir.

4.3. İdarə Heyəti Koordinasiya Mərkəzinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirir.

4.4. İdarə Heyəti 7 (yeddi) üzvdən – Azərbaycan Respublikasının səhiyyə naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən İdarə Heyətinin sədrindən, onun iki müavinindən və digər 4 (dörd) üzvdən ibarətdir.

4.5. İdarə Heyətinin vəzifələri aşağıdakılardır:

4.5.1. təsisçinin səlahiyyətlərinin həyata keçirilməsi üçün Nazirliyə təkliflər vermək və sənədlər (o cümlədən Koordinasiya Mərkəzinin maliyyə hesabatını və fəaliyyətinə dair illik hesabatı) təqdim etmək;

4.5.2. Koordinasiya Mərkəzinin maliyyə planlaşdırmasını və büdcəsini təsdiq etmək;

4.5.3. Koordinasiya Mərkəzinin strateji məqsəd və planlarını müəyyən etmək;

4.5.4. Koordinasiya Mərkəzinin fəaliyyətini təşkil etmək və ona nəzarət etmək;

4.5.5. Koordinasiya Mərkəzinin strukturunun, əməyin ödənişi fondunun, işçilərin say həddinin və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğinə dair Nazirliyə təkliflər vermək, o cümlədən Koordinasiya Mərkəzinin əldə etdiyi vəsait (dövlət büdcəsindən və dövlətə məxsus digər fondlardan ayrılan vəsait istisna olmaqla) hesabına işçilərə əlavə ödənilən həvəsləndirmə sistemini müəyyənləşdirmək;

4.5.6. Nazirliyin razılığı ilə Koordinasiya Mərkəzinin təsərrüfat cəmiyyətlərinin yaradılması və ya onlarda iştirak barədə, həmçinin Koordinasiya Mərkəzinin idarə, filial və nümayəndəliklərinin yaradılması barədə qərar qəbul etmək;

4.5.7. Koordinasiya Mərkəzinin fəaliyyətinə dair daxili qaydaları (o cümlədən maraqlar münaqişəsinin istisna olunması qaydasını), habelə idarə, filial və nümayəndəliklərinin əsasnamələrini, təsərrüfat cəmiyyətlərinin nizamnamələrini təsdiq etmək;

4.5.8. Koordinasiya Mərkəzinin fəaliyyətinə dair illik hesabatı dinləmək;

4.5.9. Koordinasiya Mərkəzinin kənar auditorunu təyin etmək və audit hesabatını qəbul etmək;

4.5.10. kənar auditorun yoxlamalarının, habelə digər yoxlamaların nəticələrinə dair tədbirlər görmək;

4.5.11. Koordinasiya Mərkəzinin daxili audit bölməsinin fəaliyyətinə nəzarət etmək və fəaliyyətinə dair hesabatlar almaq, habelə onun üzvlərini vəzifəyə təyin və vəzifədən azad etmək;

4.5.12. Nazirliyin razılığı ilə Koordinasiya Mərkəzinin xalis aktivlərinin dəyərinin 25 faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) və aidiyyəti şəxslə dəyəri Koordinasiya Mərkəzinin aktivlərinin 5 faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanılması haqqında qərar qəbul etmək;

4.5.13. bu Nizamnamənin 3.1.19-cu yarımbəndində nəzərdə tutulan vəsaitdən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

4.5.14. Koordinasiya Mərkəzinin strateji məqsədlərinin və planlarının, habelə büdcəsinin icrasına nəzarət etmək;

4.5.15. aidiyyəti şəxslə dəyəri Koordinasiya Mərkəzinin aktivlərinin 5 faizədək hissəsini təşkil edən əqdin bağlanılması haqqında qərar qəbul etmək;

4.5.16. İdarə Heyəti üzvlərinin müraciətlərinə baxmaq və qərar qəbul etmək;

4.5.17. bu Nizamnamənin 3.1.1-ci və 3.2.1-ci yarımbəndlərində nəzərdə tutulmuş məsələlərin həlli üçün tədbirlər görmək;

4.5.18. İdarə Heyəti sədrinin səlahiyyətlərinə aid edilməyən bütün digər məsələlər barədə qərar vermək.

4.6. İdarə Heyətinin sədri müvəqqəti olmadıqda, onun səlahiyyətlərinin icrasını İdarə Heyəti sədrinin müəyyən etdiyi müavinlərindən biri həyata keçirir.

4.7. İdarə Heyətinin sədri ayda azı 1 (bir) dəfə İdarə Heyətinin iclaslarını çağırır və iclaslara sədrlik edir. İdarə Heyətinin iclaslarının keçirilməsi təşəbbüsü ilə İdarə Heyətinin üzvü çıxış edir. İdarə Heyətinin iclasları üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. İdarə Heyətinin iclasında hər üzvün bir səsi olmaqla, qərarlar sadə səs çoxluğu ilə qəbul edilir. Səsvermə zamanı üzvlərin bitərəf qalmasına icazə verilmir. Səslərin sayı bərabər olduqda, iclasa sədrlik edənin səsi həlledicidir.

4.8. İdarə Heyətinin üzvlərinə, habelə İdarə Heyətinin iclaslarına dəvət olunan şəxslərə iclasların keçiriləcəyi yer və vaxt, habelə gündəliyə daxil edilmiş məsələlər barədə iclasa azı 3 (üç) iş günü qalmış, zəruri sənədlər əlavə edilməklə yazılı məlumat verilir.

4.9. İclasın gündəliyinə İdarə Heyətinin hər hansı üzvünün maraqlarına toxunan məsələ çıxarıldıqda, həmin üzv bununla bağlı maraqları haqqında ətraflı məlumat verməli, bu məsələnin müzakirəsində və həmin məsələyə dair səsvermədə iştirak etməməlidir.

4.10. Gündəliyə daxil edilməmiş və ya tələb olunan aidiyyəti sənədləri iclasdan əvvəl təqdim edilməmiş məsələlər barədə bütün iştirakçı üzvlərin razılıq verdiyi hallar istisna olmaqla qərar qəbul edilə bilməz.

4.11. İdarə Heyətinin sədri:

4.11.1. Koordinasiya Mərkəzinin cari fəaliyyətinə rəhbərlik edir və onu təmsil edir;

4.11.2. müəyyən edilmiş struktur, əməyin ödənişi fondu və işçilərin say həddi daxilində Koordinasiya Mərkəzinin aparatının və

digər struktur bölmələrinin strukturunu, ştat cədvəlini və xərclər smetasını təsdiq edir;

4.11.3. İdarə Heyətinin fəaliyyətini təşkil edir, iclaslarının gündəliyini müəyyənləşdirir və iclaslarına sədrlik edir;

4.11.4. öz təşəbbüsü və ya İdarə Heyətinin digər üzvünün təşəbbüsü ilə İdarə Heyətinin iclaslarını çağırır;

4.11.5. öz təşəbbüsü ilə, habelə İdarə Heyətinin hər hansı bir üzvünün xahişi əsasında digər şəxsləri İdarə Heyətinin iclasında iştirak etməyə dəvət edir;

4.11.6. Koordinasiya Mərkəzinin fəaliyyətinin təşkili ilə əlaqədar icrası məcburi olan daxili sərəncam və əmrlər verir;

4.11.7. Koordinasiya Mərkəzinin fəaliyyət istiqamətlərinə dair qəbul olunmuş aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

4.11.8. özünün və Koordinasiya Mərkəzinin struktur bölmələrinin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

4.11.9. Koordinasiya Mərkəzinin işçilərinin vəzifə maaşlarının, vəzifə maaşlarına əlavələrin, mükafatların və digər ödənişlərin verilməsini əməyin ödənişi fondu çərçivəsində təşkil edir;

4.11.10. Koordinasiya Mərkəzinin, o cümlədən onun idarə, filial və nümayəndəliklərinin, habelə tabeliyindəki digər qurumların işçilərinin (təsərrüfat cəmiyyətlərində isə yalnız rəhbərlərin) vəzifəyə təyin və vəzifədən azad edilməsi, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi barədə qərarlar qəbul edir;

4.11.11.Koordinasiya Mərkəzinin əmlakından bu Nizamnamədə nəzərdə tutulmuş məqsədlərə uyğun istifadə olunmasına nəzarət edir;

4.11.12. bu Nizamnamə ilə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində Koordinasiya Mərkəzinin adından əməliyyatlar aparır, müqavilələr bağlayır və onların yerinə yetirilməsini təmin edir;

4.11.13. Koordinasiya Mərkəzinin fəaliyyət istiqamətləri ilə bağlı məşvərətçi komitələr və işçi qruplar yaradır;

4.11.14. Koordinasiya Mərkəzinin fəaliyyət istiqamətləri üzrə dövlət sirrinin və məxfilik rejiminin, habelə qanunla qorunan digər məlumatların mühafizəsi üçün zəruri tədbirlər görür;

4.11.15. Koordinasiya Mərkəzinin kargüzarlıq və arxiv işinin aparılmasını təmin edir;

4.11.16. Koordinasiya Mərkəzində müraciətlərə baxılmanı və vətəndaşların qəbulunu təmin edir.

4.12. İdarə Heyətinin üzvləri:

4.12.1. İdarə Heyətinin səlahiyyətlərinə aid məsələlərin həllində iştirak edirlər;

4.12.2. İdarə Heyətinin iclasının gündəliyi ilə və baxılması nəzərdə tutulmuş materiallarla əvvəlcədən tanış olurlar;

4.12.3. İdarə Heyətinin qəbul ediləcək qərarlarına dair fikir bildirirlər;

4.12.4. İdarə Heyətinin səlahiyyətlərinə aid məsələlərə onun iclaslarında baxılması barədə təkliflər verirlər;

4.12.5. İdarə Heyətinin qərarları, iclas protokolları və digər sənədlərlə tanış olurlar.

4.13. İdarə Heyətinin üzvləri onun iclaslarında baxılan məsələlərə qərəzsiz yanaşmalı, İdarə Heyəti üzvünün adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməlidirlər, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsi ilə müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər.

## 5. Koordinasiya Mərkəzinin nizamnamə fondu, əmlakı və maliyyə fəaliyyətinin əsasları

5.1. Koordinasiya Mərkəzinin nizamnamə fondunun məbləği 300 000 (üç yüz  min) manatdır.

5.2. Koordinasiya Mərkəzinin əmlakı nizamnamə fondundan, təsisçinin verdiyi əmlakdan, həmçinin ilkin mərhələdə dövlət büdcəsindən ayrılan vəsaitdən, fəaliyyətindən əldə olunmuş gəlirdən, ianələrdən, qrantlardan, cəlb edilən investisiyalardan və qanunla qadağan edilməyən digər vəsaitlərdən formalaşır.

5.3. Koordinasiya Mərkəzi öz əmlakından yalnız bu Nizamnamə ilə müəyyən olunmuş məqsədlərə uyğun istifadə edir. Koordinasiya Mərkəzi balansında olan dövlət əmlakına münasibətdə səlahiyyətlərini “Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı ilə müəyyən edilmiş qaydada həyata keçirir.

5.4. Koordinasiya Mərkəzi qanunda nəzərdə tutulmuş vergiləri və digər məcburi ödənişləri ödədikdən sonra Koordinasiya Mərkəzinin, onun idarə, filial, nümayəndəliklərinin və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların fəaliyyətindən

əldə edilmiş vəsait üzərində müstəqil sərəncam vermək hüququna malikdir.

5.5. Koordinasiya Mərkəzinin mənfəəti “Publik hüquqi şəxslər haqqında” Azərbaycan Respublikası Qanununun 3.3-cü maddəsinə uyğun olaraq bu Nizamnamədə nəzərdə tutulmayan məqsədlər üçün yalnız Nazirliyin qərarı ilə dövlət büdcəsinə köçürülə bilər.

5.6. Koordinasiya Mərkəzi tərəfindən görülən işlərin və göstərilən xidmətlərin qiymətləri tənzimlənən qiymətlərə aid deyildir.

## 6. Koordinasiya Mərkəzinin fəaliyyətinə nəzarətin forması və əhatə dairəsi

6.1. Koordinasiya Mərkəzinin fəaliyyətinə nəzarəti təsisçi, həmçinin bu Nizamnamə ilə müəyyən edilmiş qaydada İdarə Heyəti həyata keçirirlər.

6.2. Koordinasiya Mərkəzinin fəaliyyətinə dair illik hesabat Nazirliyə təqdim edilir.

## 7. Koordinasiya Mərkəzində uçot və hesabat

7.1. Koordinasiya Mərkəzi “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanunu ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada mühasibat uçotunu aparır, maliyyə hesabatlarını tərtib, təqdim və dərc edir.

7.2. Koordinasiya Mərkəzi “Rəsmi statistika haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik hesabatları tərtib və təqdim edir.

7.3. Koordinasiya Mərkəzi idarə, filial, nümayəndəlik və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasını təmin edir.

7.4. Koordinasiya Mərkəzi öz fəaliyyətinin müstəqil surətdə yoxlanılması üçün kənar auditor cəlb edir.

## 8. Koordinasiya Mərkəzinin ləğvi və yenidən təşkili

8.1. Koordinasiya Mərkəzinin ləğvini və yenidən təşkilini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir.

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2022-ci il 6 avqust
tarixli 288 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

**2 nömrəli əlavə**

## Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzinin Strukturu

Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzinin aparatı.